# رسالتان موجزتان في الزكاة والصيام

# Zəkat və oruc haqqında iki müxtəsər risalə.

# Zəkat və oruc haqqında iki müxtəsər risalə.

Abdüləziz bin Abdullah bin Baz

# Zəkat və oruc haqqında iki müxtəsər risalə.

Hörmətli Şeyx

Abdüləziz bin Abdullah bin Baz

Allah ona rəhmət eləsin.

## Birinci risalə.

## Zəkatla bağlı mühüm araşdırmalar.

Mərhəmətli və Rəhmli Allahın adı ilə.

Həmd Tək Allaha məxsusdur! Salat və salam Özündən sonra heç bir peyğəmbər olmayan Muhammədə, onun ailəsinə və səhabələrinə olsun. Daha sonra:

Bu kəlmələri yazmağa səbəb, şanının böyük olmasına və İslam binasının onsuz möhkəm ola bilməyəcəyi İslamın beş ərkanından biri olmasına rəğmən, bir çox müsəlmanların səhlənkarlıqla yanaşaraq şəriətə uyğun şəkildə vermədiyi zəkat fərzi barədə nəsihət etmək və xatırlatmaqdır. Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurur:

«بُنِيَ الإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَصَوْمِ رَمَضَانَ، وَحَجِّ البَيْتِ»،

«İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin (sallallahu aleyhi və səlləm) Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat

vermək, Ramazan orucunu tutmaq və Allahın evini həcc etmək»[1]. Hədisi iki şeyx rəvayət etmişdir.

Zəkatın müsəlmanlara fərz edilməsi İslamın ən bariz gözəlliklərindən və bu dini qəbul edənlərin işlərinə göstərdiyi qayğının təzahürlərindəndir. Çünki onun faydaları çoxdur və kasıb müsəlmanların ona şiddətli ehtiyacı vardır.

Onun faydalarından: zəngin ilə fəqir arasında məhəbbət bağlarını möhkəmləndirməkdir. Çünki nəfslər, özlərinə yaxşılıq edənləri sevməyə meyillidir.

Onlardan biri də: nəfsin təmizlənməsi, paklaşdırılması, paxıllıq və xəsislik xislətindən uzaqlaşdırılmasıdır. Necə ki, Qurani-Kərim Uca Allahın bu sözündə bu mənaya işarə etmişdir:

﴿خُذۡ مِنۡ أَمۡوَٰلِهِمۡ صَدَقَةٗ تُطَهِّرُهُمۡ وَتُزَكِّيهِم بِهَا...﴾

"Onların mallarından sədəqə götür ki, bununla onları (günahlarından) pak edib təmizə çıxarasan". [Tövbə 9 surəsi, ayə 103].

Müsəlmanı səxavətli olmağa və ehtiyac sahiblərinə mərhəmət göstərməyə alışdırmaq.

Allahdan bərəkət, artım və əvəz gətirməsi. Necə ki, uca Allah buyurur:

﴿...وَمَآ أَنفَقۡتُم مِّن شَيۡءٖ فَهُوَ يُخۡلِفُهُۥۖ وَهُوَ خَيۡرُ ٱلرَّٰزِقِينَ﴾

"Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!". [Səba 34 surəsi, ayə 39].

---

[1] Hədisi Buxari: (8) və Müslim: (16) rəvayət etmişdir.

Səhih hədisdə peyğəmbər, sallallahu aleyhi va səlləm, Uca Allahın belə buyurduğunu demişdir:

«يَا ابْنَ آدَمَ أَنْفِقْ نُنْفِقْ عَلَيْكَ...»،

"Ey Adəm övladı mənim yolumda xərclə ki, mən də sənə yetirim..."[1]. Buna oxşar başqa çoxsaylı faydalarını da qeyd etmək olar.

Onu verməkdə xəsislik edən və ya səhlənkarlıq göstərənlər barəsində şiddətli əzab olacağı varid olmuşdur. Uca Allah buyurur:

﴿...وَٱلَّذِينَ يَكۡنِزُونَ ٱلذَّهَبَ وَٱلۡفِضَّةَ وَلَا يُنفِقُونَهَا فِي سَبِيلِ ٱللَّهِ فَبَشِّرۡهُم بِعَذَابٍ أَلِيمٍ 34 يَوۡمَ يُحۡمَىٰ عَلَيۡهَا فِي نَارِ جَهَنَّمَ فَتُكۡوَىٰ بِهَا جِبَاهُهُمۡ وَجُنُوبُهُمۡ وَظُهُورُهُمۡۖ هَٰذَا مَا كَنَزۡتُمۡ لِأَنفُسِكُمۡ فَذُوقُواْ مَا كُنتُمۡ تَكۡنِزُونَ35﴾

"Qızıl-gümüş yığıb onları Allah yolunda xərcləməyənləri ağrılı-acılı bir əzabla müjdələ.

O gün (Qiyamət günü) yığdıqları qızıl-gümüş Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: “Bu, özünüz üçün yığıb saxladığınız sərvətinizdir. Elə isə dadın yığıb saxladığınız sərvətin əzabını!”– (deyiləcəkdir.)". [Tövbə 9 surəsi, ayələr 34-35]. Zəkatı verilməyən hər bir mal, sahibinin Qiyamət günü onunla əzaba düçar ediləcəyi bir xəzinədir. Necə ki, səhih hədisdə peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

---

[1] Hədisi Müslim: (993) rəvayət etmişdir.

«مَا مِنْ صَاحِبِ ذَهَبٍ وَلَا فِضَّةٍ لَا يُؤَدِّي حَقَّهَا إِلَّا إِذَا كَانَ يَوْمُ القِيَامَةِ صُفِّحَتْ لَهُ صَفَائِحُ مِنْ نَارٍ؛ فَأُحْمِيَ عَلَيْهَا فِي نَارِ جَهَنَّمَ، فَيُكْوَى بِهَا جَنْبُهُ وَجَبِينُهُ وَظَهْرُهُ كُلَّمَا بَرَدَتْ أُعِيدَتْ لَهُ فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ خَمْسِينَ أَلْفَ سَنَةٍ حَتَّى يُقْضَى بَيْنَ العِبَادِ، فَيُرَى سَبِيلَهُ: إِمَّا إِلَى الجَنَّةِ، وَإِمَّا إِلَى النَّارِ».

«Qiyamət günü zəkatını verməmiş hər bir qızıl və gümüş sahibi üçün (onun malı) oddan piltələrə çevriləcək, Cəhənnəm atəşində qızdırılaraq onun böyürünə, alnına və kürəyinə dağ basılacaqdır. Hər dəfə soyuduqda, miqdarı əlli min il olan bir gündə insanlar arasında hökm verilənə qədər (bu əzab) onun üçün təkrarlanacaqdır. Sonda o, yolunun ya Cənnətə, ya da Cəhənnəmə olduğunu görəcəkdir»[1].

Sonra peyğəmbər, sallallahu aleyhi və səlləm, zəkatını verməyən dəvə, mal-qara və qoyun sahibini zikr etdi və onun Qiyamət günü onlarla əzab olunacağını xəbər verdi.

Rəsulullah, sallallahu əleyhi va səlləm, səhih bir hədisdə belə buyurmuşdur:

«مَنْ آتَاهُ اللهُ مَالًا فَلَمْ يُؤَدِّ زَكَاتَهُ مُثِّلَ لَهُ شُجَاعًا أَقْرَعَ لَهُ زَبِيبَتَانِ يُطَوِّقُهُ يَوْمَ القِيَامَةِ، ثُمَّ يَأْخُذُ بِلَهْزِمَتَيْهِ (يَعْنِي شِدْقَيْهِ)، ثُمَّ يَقُولُ: أَنَا مَالُكَ، أَنَا كَنْزُكَ»، ثُمَّ تَلَا النَّبِيُّ ﷺ قَوْلَهُ تَعَالَى: ﴿وَلَا يَحۡسَبَنَّ ٱلَّذِينَ يَبۡخَلُونَ بِمَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦ هُوَ خَيۡرٗا لَّهُمۖ بَلۡ هُوَ شَرّٞ لَّهُمۡۖ سَيُطَوَّقُونَ مَا بَخِلُواْ بِهِۦ يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ...﴾

"Kim Allahın ona bəxş etdiyi var-dövlətin zəkatını vermirsə, Qiyamət günü o var-dövlət başının tükü tökülmüş, gözlərinin də üstündə iki qara xalı olan ilana çevri-lib onun boy-nuna sarıla-caq və ağzının hər iki tərəfindən yapışıb deyəcək: "Mən sənin var-

[1] Hədisi Müslim: (987) rəvayət etmişdir.

döv-lə-tinəm! Mən sənin xəzinənəm!”. Sonra peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, Uca Allahın bu ayəsini oxudu: "Allahın Öz lütfündən bəxş etdi-yini xərcləməyə xəsis-lik edən-kimsə-lər elə gü-man etməsin-lər ki, bu, on-ların xeyrinə-dir. Ək-sinə, bu, onların zərərinədir. On-ların xə-sis-lik et-dikləri şey qiya-mət gü-nü bo-yun-larına do-la-nacaqdır". [Əli İmran 3 surəsi, ayə 180][1].

Zəkatı dörd növdən çıxarmaq vacibdir: Yerdən çıxan dənli bitkilər və meyvələr, otlayan mal-qara, qızıl və gümüş və ticarət malları.

Bu dörd növün hər birinin müəyyən bir nisabı vardır və bu miqdardan az olana zəkat düşmür. Dənli bitkilərin və meyvələrin nisabı beş vəsəqdir. Bir vəsəq peyğəmbərin, sallallahu aleyhi və səlləm, saası ilə altmış saa olmaqla, xurma, kişmiş, buğda, düyü, arpa və bu kimi məhsullardan cəmi üç yüz saadır. Bir saa isə, orta bədən quruluşlu bir kişinin iki əli dolu olan dörd ovucudur.

Əgər xurma ağacları və əkinlər heç bir zəhmət və məşəqqət çəkilmədən: yağmur, axar çaylar, axar bulaqlar və bu kimi vasitələrlə sulanarsa, məhsulun onda birini zəkat vermək vacibdir.

Yox əgər suvarıcı çarhlar (savanilər), su qaldırıcı maşınlar və s. müasir alətlər və bu kimi vasitələrlə məşəqqətlə sulanıbsa, bu zaman ondan, onda

[1] Hədisi Buxari: (1338) rəvayət etmişdir.

birinin yarısını zəkat vermək vacibdir. Necə ki, bu, peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rəvayət olunan səhih hədislə sabitdir.

Otlaq heyvanları olan dəvənin, inəyin və qoyunun nisabına gəldikdə isə, bunun təfsilatı peyğəmbərin, sallallahu aleyhi və səlləm, səhih hədislərində bəyan edilmişdir. Bunu bilmək istəyən kimsə bu barədə elm əhlindən soruşa bilər. Əgər məqsəd müxtəsərlik olmasaydı, faydanın tam olması üçün onu zikr edərdik.

Gümüşün nisabı isə yüz qırx misqaldır və onun Səudiyyə Ərəbistanı riyalı ilə miqdarı əlli altı riyaldır.

Qızılın nisabı iyirmi misqaldır. Bu da Səudiyyə cüneyhi ilə on bir və yeddidə üç cüneyhə, qramla isə doxsan iki qrama bərabərdir. Onların hər ikisindən və ya birindən nisab miqdarına malik olub, üstündən bir il keçərsə, qırxdan bir hissəsi zəkat verilməlidir.

Qazanc əsas mala tabedir və onun üçün yeni bir ilin tamamlanması şərt deyil. Eynilə, otlaq heyvanlarının balaları da öz əslinə tabedir və əgər əsli nisab miqdarındadırsa, onlar üçün də yeni bir ilin tamamlanması şərt deyil.

İnsanların bu gün istifadə etdiyi kağız pullar da qızıl və gümüş hökmündədir. Adı istər dirhəm, dinar, dollar və ya başqa cür olsun, əgər dəyəri qızıl və ya gümüşün nisabına çatıb üzərindən bir il keçərsə, zəkatı vacib olur.

Pulların hökmünə qadınların qızıl və ya gümüş zinət əşyaları da daxildir. Əgər bu əşyalar zəkat verməyi vacib edən məbləğə çatıb və üzərindən bir il keçərsə, alimlərin bu məsələdə olan iki rəyinin ən səhihinə əsasən, istifadə etmək və ya başqasına müvəqqəti istifadəyə vermək üçün olsa belə, onlardan zəkat vermək vacibdir. Buna səbəb peyğəmbərin, sallallahu aleyhi və səlləm, buyruğunun ümumi olmasıdır:

«مَا مِنْ صَاحِبِ ذَهَبٍ أَوْ فِضَّةٍ لَا يُؤَدِّي زَكَاتَهَا إِلَّا إِذَا كَانَ يَوْمُ القِيَامَةِ صُفِّحَتْ لَهُ صَفَائِحُ مِنْ نَارٍ».

«Malının zəkatını verməyən elə bir qızıl və ya gümüş sahibi yoxdur ki, Qiyamət günü onun üçün oddan piltələr hazırlanmasın»[1]. Zikr olunan hədisin sonuna qədər.

Peyğəmbərdən, sallallahu aleyhi və səlləm, sabit olmuşdur ki, o, bir qadının əlində qızıldan iki qolbaq görüb belə buyurmuşdur:

«أَتُعْطِينَ زَكَاةَ هَذَا؟». قَالَتْ: لَا. قَالَ: «أَيَسُرُّكِ أَنْ يُسَوِّرَكِ اللهُ بِهِمَا يَوْمَ القِيَامَةِ سِوَارَيْنِ مِنْ نَارٍ!». فَأَلْقَتْهُمَا، وَقَالَتْ: «هُمَا لِلَّهِ وَلِرَسُولِهِ».

“Bunun zəkatını verirsənmi?”. Qadın “Xeyr!” – dedi. O buyurdu: “Qiyamət günü Allahın sənə bunların əvəzinə Cəhənnəm odundan iki qolbaq etməsini istərdinmi?!”. Bunun üzərinə qadın onları atdı və dedi: “Onlar Allah və rəsulu üçündür”[2].

---

[1] Hədisi Müslim: (987) rəvayət etmişdir.

[2] Əbu Davud: (1563), Nəsai: (2270) həsən sənədlə rəvayət etmişdir.

Ummu Sələmədən, Allah ondan razı olsun, səhih olaraq rəvayət edilir ki, o, qızıldan bəzək əşyaları taxırdı və belə dedi: “Ey Allahın rəsulu! Bu kənzdirmi?”. Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurdu:

«مَا بَلَغَ أَنْ يُزَكَّى فَزُكِّيَ فَلَيْسَ بِكَنْزٍ»

«Zəkat həddə çatıb zəkatı verilmiş mal xəzinə sayılmaz»[1]. Bu mənada olan başqa hədislərdə vardır.

Satış üçün nəzərdə tutulan ticarət malları ilin sonunda qiymətləndirilir və alış qiymətindən çox, az və ya ona bərabər olmasından asılı olmayaraq, ümumi dəyərinin qırxda biri zəkat olaraq çıxarılır. Səmurə, Allah ondan razı olsun, demişdir:

«كَانَ رَسُولُ اللهِ ﷺ يَأْمُرُنَا أَنْ نُخْرِجَ الصَّدَقَةَ مِنَ الَّذِي نُعِدُّهُ لِلْبَيْعِ».

“Peyğəmbər, sallallahu aleyhi və səlləm, bizə, satmaq üçün hazırladığımız maldan sədəqə çıxartmağı əmr edərdi”[2].

Bura satış üçün hazırlanan torpaqlar, binalar, avtomobillər, su nasosları və satış üçün hazırlanan digər növ mallar daxildir.

Amma satmaq üçün yox, icarəyə vermək məqsədilə olan binaların zəkatı, onların icarə haqqından əldə edilən gəlirin üstündən bir il keçərsə, həmin gəlirdən verilir. Binaların özlərindən isə zəkat verilmir. Çünki onlar satış

[1] Əbu Davud: (1564) rəvayət etmişdir.
[2] Əbu Davud: (1562) rəvayət etmişdir.

üçün nəzərdə tutulmayıb. Həmçinin, satış üçün nəzərdə tutulmayan şəxsi və icarə avtomobillərindən zəkat verilmir. Belə ki, sahibi onları istifadə etmək üçün almışdır.

Əgər taksi sürücüsünün və ya başqasının topladığı pul nisab həddinə çatıb üzərindən bir il keçərsə, həmin pulu xərcləmək, evlənmək, daşınmaz əmlak almaq, borcunu ödəmək və ya digər məqsədlər üçün nəzərdə tutmasından asılı olmayaraq zəkatını vermək vacibdir. Bu hökm, bu kimi hallarda zəkatın vacibliyinə dəlalət edən şəri dəlillərin ümumiliyinə əsaslanır.

Alimlərin rəylərindən daha doğrusu budur ki, yuxarıda deyilənlərə görə borc zəkata mane olmur.

Eləcə də alimlərin əksəriyyətinə görə, yetimlərin və dəlilərin malları nisab həddinə çatıb üzərindən bir il keçdikdə onlardan zəkat vermək vacibdir və il tamam olduqda onların qəyyumları onların adından zəkat niyyətlə zəkatı çıxarmaları vacibdir. Bu, dəlillərin ümumi olmasına görədir, necə ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, Muazın, radiyallahu anhu, hədisində onu Yəmən əhlinə göndərərkən buyurmuşdur:

«إِنَّ اللهَ افْتَرَضَ عَلَيْهِمْ صَدَقَةً فِي أَمْوَالِهِمْ تُؤْخَذُ مِنْ أَغْنِيَائِهِمْ، وَتُرَدُّ فِي فُقَرَائِهِمْ».

«Allah onlara mallarından zəkat verməyi, varlılarından götürüb kasıblarına paylamağı vacib buyurmuşdur»[1].

---

[1] Hədisi Buxari: (1395) və Müslim: (19) rəvayət etmişdir.

Zəkat Allahın haqqıdır. Onu haqqı olmayan kimsəyə tərəfkeşlik edərək vermək, onun vasitəsilə özünə mənfəət cəlb etmək və ya zərəri dəf etmək, malını onunla qorumaq yaxud özündən məzəmməti uzaqlaşdırmaq caiz deyildir. Əksinə, müsəlman zəkatı başqa bir məqsədlə deyil, sırf haqq sahibi olduqları üçün layiq olanlara, könül xoşluğu ilə və Allaha ixlasla verməlidir ki, həm öhdəliyindən azad olsun, həm də böyük savaba və verdiyi malın əvəzinin ödənilməsinə layiq görülsün.

Uca Allah Öz Kərim Kitabında zəkat verilən insanların qisimlərini belə açıqlamışdır:

﴿إِنَّمَا ٱلصَّدَقَٰتُ لِلۡفُقَرَآءِ وَٱلۡمَسَٰكِينِ وَٱلۡعَٰمِلِينَ عَلَيۡهَا وَٱلۡمُؤَلَّفَةِ قُلُوبُهُمۡ وَفِي ٱلرِّقَابِ
وَٱلۡغَٰرِمِينَ وَفِي سَبِيلِ ٱللَّهِ وَٱبۡنِ ٱلسَّبِيلِۖ فَرِيضَةٗ مِّنَ ٱللَّهِۗ وَٱللَّهُ عَلِيمٌ حَكِيمٞ60﴾

"Sədəqələr (zəkatlar) Allah tərəfindən bir fərz olaraq yalnız fəqirlərə, miskinlərə, zəkatı yığıb paylayanlara, qəlbləri (İslam dininə) isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və (pulu qurtarıb yolda qalan) müsafirlərə məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir". [Tovbə 9 surəsi, ayə 60].

Bu kərim ayənin Uca Allahın bu iki əzəmətli adı ilə başa çatmasında Pak olan Allah tərəfindən qullarına belə bir işarə vardır ki, O, Öz qullarının hallarını – kimin sədəqəyə layiq olduğunu və kimin layiq olmadığını – biləndir. O, həmçinin şəriətində

və qədərində də hikmət sahibidir, odur ki, hikmətinin bəzi sirləri bəzi insanlara gizli qalsa belə, hər şeyi yalnız özünə layiq olan yerə qoyar ki, qullar Onun şəriətinə arxayın olub hökmünə təslim olsunlar.

Uca Allahdan diləyirik ki, bizi və bütün müsəlmanları dinini dərindən anlamağa, Onunla münasibətdə sadiq olmağa və Onu razı salan əməllərə tələsməyə müvəffəq etsin, bizi Onun qəzəbinə səbəb olan amillərdən qorusun! Həqiqətən, O, eşidəndir, yaxın olandır!

Allahın salatı və salamı qulu və rəsulu olan Muhammədin, onun ailəsinin və cəmi səhabələrinin üzərinə olsun.

Elmi Araşdırmalar,
Fitva, Dəvət və İrşad idarələrinin ümumi rəisi,
Hörmətli Şeyx: Abdüləziz bin Abdullah bin Baz

## İkinci risalə.

## Ramazan orucunun və qiyamının fəziləti, habelə bəzi insanlara məxfi qalan mühüm hökmlərin bəyanı.

Mərhəmətli və Rəhmli Allahın adı ilə.

Abduləziz bin Abdullah bin Bazdan, bunu görəcək (oxuyacaq) müsəlmanlara. Allah məni və sizi iman əhlinin yoluna yönəltsin və Sünnə və Quranı fəhm etməyə müvəffəq etsin. Amin.

Sələmu-Llahi aleykum və rahmətu-Llahi va bərakətuhu.

Bundan sonra: Bu, Ramazan orucunun və qiyamının fəziləti, bu ayda saleh əməllərdə yarışmağın fəziləti, habelə bəzi insanlara məlum olmayan mühüm hökmlərin bəyanı haqqında müxtəsər bir nəsihətdir.

Allah rəsulundan, salləllahu aleyhi və səlləm, rəvayət olunur ki, o, səhabələrinə Ramazan ayının gəlişini müjdələyər və onlara, salləllahu aleyhi və səlləm, xəbər verərdi ki, bu ayda rəhmət qapıları və Cənnətin qapıları açılır, Cəhənnəmin qapıları bağlanılır və şeytanlara zəncir vurulur və belə buyurardı:

«إِذَا كَانَتْ أَوَّلُ لَيْلَةٍ مِنْ رَمَضَانَ فُتِّحَتْ أَبْوَابُ الجَنَّةِ فَلَمْ يُغْلَقْ مِنْهَا بَابٌ، وَغُلِّقَتْ أَبْوَابُ جَهَنَّمَ فَلَمْ يُفْتَحْ مِنْهَا بَابٌ، وَصُفِّدَتِ الشَّيَاطِينُ، وَيُنَادِي مُنَادٍ: يَا بَاغِيَ الخَيْرِ أَقْبِلْ، وَيَا بَاغِيَ الشَّرِّ أَقْصِرْ. وَلِلَّهِ عُتَقَاءُ مِنَ النَّارِ، وَذَلِكَ كُلَّ لَيْلَةٍ».

"Ramazan ayının ilk gecəsi gəldikdə Cənnətin qapıları açılır və bu qapılardan heç biri bağlı qalmır. Cəhənnəmin qapıları bağlanılır və bu qapılardan heç biri açılmır. Şeytanlara zəncir vurulur və bir carçı səslənər: "Ey xeyir istəyən, irəli gəl, və ey şər istəyən, (şərdən) əl çək!" Allahın Cəhənnəm odundan azad etdiyi qulları vardır və bu, hər gecə baş verir".

Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurur:

«جَاءَكُمْ شَهْرُ رَمَضَانَ شَهْرُ بَرَكَةٍ يَغْشَاكُمُ اللهُ فِيهِ: فَيُنْزِلُ الرَّحْمَةَ وَيَحُطُّ الخَطَايَا، وَيَسْتَجِيبُ الدُّعَاءَ، يَنْظُرُ اللهُ إِلَى تَنَافُسِكُمْ فِيهِ فَيُبَاهِي بِكُمْ مَلَائِكَتَهُ؛ فَأَرُوا اللهَ مِنْ أَنْفُسِكُمْ خَيْرًا؛ فَإِنَّ الشَّقِيَّ مَنْ حُرِمَ فِيهِ رَحْمَةَ اللهِ».

«Sizə bərəkət ayı olan ramazan ayı gəldi. Allah bu ayda sizi (Öz mərhəməti ilə) bürüyər. Rəhmətini nazil edər, xətaları silər və duaları qəbul edər. Allah bu ayda sizin (xeyir işlərdə) yarışmağınıza baxar və sizinlə mələklərinin qarşısında öyünər. Elə isə Allaha özünüzdən xeyir göstərin. Həqiqətən, bədbəxt o kəsdir ki, bu ayda Allahın rəhmətindən məhrum olar».

Peyğəmbərimiz, Allahın salatı və salamı onun üzərinə olsun, buyurur:

«مَنْ صَامَ رَمَضَانَ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ، وَمَنْ قَامَ رَمَضَانَ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ، وَمَنْ قَامَ لَيْلَةَ الْقَدْرِ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ».

«Kim Ramazan orucunu imanla və savabını yalnız Allahdan umaraq tutarsa, keçmiş günahları bağışlanar, kim Ramazan ayında (gecələrində) imanla və savabını yalnız Allahdan umaraq ibadətlə keçirərsə (namaz qılarsa), keçmiş günahları bağışlanar və kim Qədr gecəsini imanla və savabını yalnız Allahdan umaraq ibadətlə keçirərsə, keçmiş günahları bağışlanar»".

Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurur:

«يَقُولُ اللهُ: كُلُّ عَمَلِ ابْنِ آدَمَ لَهُ الحَسَنَةُ بِعَشْرِ أَمْثَالِهَا إِلَى سَبْعِمِائَةِ ضِعْفٍ إِلَّا الصِّيَامَ فَإِنَّهُ لِي وَأَنَا أَجْزِي بِهِ؛ تَرَكَ شَهْوَتَهُ وَطَعَامَهُ وَشَرَابَهُ مِنْ أَجْلِي. لِلصَّائِمِ فَرْحَتَانِ: فَرْحَةٌ عِنْدَ فِطْرِهِ، وَفَرْحَةٌ عِنْدَ لِقَاءِ رَبِّهِ. وَلَخُلُوفُ فَمِ الصَّائِمِ أَطْيَبُ عِنْدَ اللهِ مِنْ رِيحِ المِسْكِ».

"Allah buyurur: Adəm övladının hər bir əməlinin savabı on qatından yeddi yüz qatınadək artırılır.

Yalnız orucdan başqa. Oruc isə Mənim üçündür və onun mükafatını Mən verəcəyəm. O, Mənim üçün şəhvətini, yeməyini və içməyini tərk etmişdir. Oruc tutan adamın iki sevinc anı vardır: Biri iftarını açdığı zaman sevinir, digəri isə Rəbbinə qovuşduğu zaman sevinəcəkdir. Oruc tutan adamın ağzından gələn qoxu, Allah yanında müşk qoxusundan daha gözəldir".

Ramazan orucunun və qiyamının, eləcə də ümumiyyətlə orucun fəziləti barədə bir çox hədislər mövcuddur.

Buna görə də mömin, Allahın ona ramazan ayına çatmaqla lütf etdiyi bu fürsəti qənimət bilməli, itaətlərə tələsməli, pis əməllərdən çəkinməli, Allahın vacib etdiyi əməlləri, xüsusilə də beş vaxt namazı yerinə yetirməyə səy göstərməlidir. Çünki namaz İslamın dirəyidir və iki şəhadət kəliməsindən sonra ən əzəmətli fərzdir. Buna görə də hər bir müsəlman kişi və qadına bu namazlara riayət etmək və onları öz vaxtlarında xuşu və təmkinlə qılmaq vacibdir.

Kişilərə aid ən mühüm vaciblərdən biri də, namazı Allahın ucaldılmasına və adının zikr edilməsinə izin verdiyi evlərində camaatla qılmaqdır. Allah Təala buyurur:

﴿وَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ وَءَاتُوا۟ ٱلزَّكَوٰةَ وَٱرْكَعُوا۟ مَعَ ٱلرَّٰكِعِينَ 43﴾

"Namaz qılın, zəkat verin və rüku edənlərlə birgə rüku edin!". [Bəqərə 2 surəsi, ayə 43]. Uca Allah buyurur:

﴿حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلۡوُسۡطَىٰ وَقُومُواْ لِلَّهِ قَٰنِتِينَ 238﴾

"Namazları, (xüsisilə) orta namazı qoruyun və Allah üçün müti olaraq (namaza) durun". [Bəqərə 2 surəsi, ayə 238]. Uca Allah başqa ayədə belə buyurur:

﴿قَدۡ أَفۡلَحَ ٱلۡمُؤۡمِنُونَ 1 ٱلَّذِينَ هُمۡ فِي صَلَاتِهِمۡ خَٰشِعُونَ 2﴾

"Möminlər, həqiqətən də, nicat tapmışlar.

O kəslər ki, namazlarında mütidirlər". [Muminun 23 surəsi, ayələr 1-2]. Hətta bu ayəyə qədər:

﴿وَٱلَّذِينَ هُمۡ عَلَىٰ صَلَوَٰتِهِمۡ يُحَافِظُونَ 9 أُوْلَٰٓئِكَ هُمُ ٱلۡوَٰرِثُونَ 10 ٱلَّذِينَ يَرِثُونَ ٱلۡفِرۡدَوۡسَ هُمۡ فِيهَا خَٰلِدُونَ 11﴾

"O kəslər ki, namazlarını vaxtlı-vaxtında qılırlar. Məhz onlar – varis olanlardır. O kəslər ki, Firdovs Cənnətinə varis alacaqlar, onlar orada əbədi qalacaqlar". [Muminun 23 surəsi, ayələr 9-11]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«العَهْدُ الَّذِي بَيْنَنَا وَبَيْنَهُمُ الصَّلَاةُ فَمَنْ تَرَكَهَا فَقَدْ كَفَرَ».

"Bizimlə onlar arasındakı əhd namazdır. Kim namazı tərk etsə, artıq küfr etmişdir".

Namazdan sonra ən mühüm fərz zəkatın verilməsidir. Necə ki, Uca Allah buyurur:

﴿وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُواْ ٱلصَّلَوٰةَ وَيُؤۡتُواْ ٱلزَّكَوٰةَۚ وَذَٰلِكَ دِينُ ٱلۡقَيِّمَةِ 5﴾

"Halbuki onlara, dini məhz Allaha məxsus edib, batildən haqqa yönələrək ibadət etmələri, namaz qılmaları və zəkat vermələri əmr olunmuşdur. Doğru din də elə budur!". [Bəyyinə 98 surəsi, ayə 5].

Uca Allah buyurur:

﴿وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَ وَأَطِيعُواْ ٱلرَّسُولَ لَعَلَّكُمۡ تُرۡحَمُونَ 56﴾

"Namaz qılın, zəkat verin və peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm edilsin". [Nur 24 surəsi, ayə 56].

Uca Allahın Kitabı və Onun kəramətli rəsulunun Sünnəsi dəlalət edir ki, malının zəkatını verməyən kəsə Qiyamət günü öz malı ilə əzab veriləcəkdir.

Namaz və zəkatdan sonra ən mühüm əməl Ramazan orucunu tutmaqdır ki, o da peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, sözlərində zikr olunan İslamın beş ərkanından biridir:

«بُنِيَ الإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَصَوْمِ رَمَضَانَ، وَحَجِّ الْبَيْتِ».

«İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin (sallallahu aleyhi və səlləm) Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və Allahın evini həcc etmək».

Müsəlman orucunu və (gecə) ibadətlərini (namazını) Allahın haram buyurduğu söz və əməllərdən qorumalıdır. Çünki orucdan məqsəd Uca Allaha itaət etmək, Onun haramlarından çəkinmək, nəfsin istəklərinə qarşı mübarizə apararaq Rəbbinə boyun əymək və onu Allahın haram buyurduqlarına qarşı səbrli olmağa alışdırmaqdır. Məqsəd təkcə yeməyi, içməyi və digər orucu pozan amilləri tərk etmək deyil. Buna görə də peyğəmbərdən, sallallahu aleyhi və səlləm, səhih olaraq rəvayət olunur ki, o, belə buyurmuşdur:

«الصِّيَامُ جُنَّةٌ، فَإِذَا كَانَ يَوْمُ صَوْمِ أَحَدِكُمْ فَلَا يَرْفُثْ وَلَا يَصْخَبْ، فَإِنْ سَابَّهُ أَحَدٌ أَوْ قَاتَلَهُ فَلْيَقُلْ: إِنِّي صَائِمٌ»،

«Oruc bir qalxandır. Sizdən biriniz oruc tutduğu gün günah işlər görməsin və qışqırıb dava-dalaş salmasın. Əgər kimsə onu söysə və ya onunla dalaşmaq istəsə, qoy: "Mən oruc tutmuşam" - desin». Peyğəmbər, sallallahu aleyhi va səlləm, səhih bir hədisdə belə buyurmuşdur:

«مَنْ لَمْ يَدَعْ قَوْلَ الزُّورِ وَالعَمَلَ بِهِ وَالجَهْلَ فَلَيْسَ لِلَّهِ حَاجَةٌ فِي أَنْ يَدَعَ طَعَامَهُ وَشَرَابَهُ».

«Kim yalan danışmağı, yalanla əməl etməyi və cahilliyi tərk etməzsə, Allahın onun yeməyini və içməyini tərk etməsinə ehtiyacı yoxdur». Bu və digər dəlillərdən aydın olur ki, oruc tutan şəxs Allahın haram etdiyi hər bir şeydən çəkinməli və Onun vacib buyurduğu bütün əmrləri yerinə

yetirməlidir. Beləliklə, onun günahlarının bağışlanması, Cəhənnəmdən azad olması, orucunun və (gecə) namazlarının qəbul olunması ümid edilər.

Bəzi insanlara aydın olmayan bir neçə məsələ də var:

Bunlardan biri də budur ki, müsəlman orucu riyakarlıq, şöhrətpərəstlik, insanları təqlid etmək yaxud ailəsinə və ya ölkəsinin əhalisinə tabe olmaq üçün deyil, məhz imanla və savabını Allahdan umaraq tutmalıdır. Əksinə, onu oruc tutmağa sövq edən səbəb Allahın bu ibadəti ona fərz buyurmasına iman etməsi və buna görə Rəbbi qatında olan mükafatı umması olmalıdır. Eləcə də müsəlman Ramazan gecələrində namaz qılmağı (qiyamı) başqa bir səbəbə görə deyil, məhz imanla və savabını Allahdan umaraq etməlidir. Buna görə də peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ صَامَ رَمَضَانَ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ، وَمَنْ قَامَ رَمَضَانَ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ، وَمَنْ قَامَ لَيْلَةَ الْقَدْرِ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ».

«Kim Ramazan orucunu imanla və savabını yalnız Allahdan umaraq tutarsa, keçmiş günahları bağışlanar. Kim Ramazan ayında (gecələrində) imanla və savabını yalnız Allahdan umaraq ibadətlə keçirərsə, keçmiş günahları bağışlanar. Kim Qədr

gecəsini imanla və savabını yalnız Allahdan umaraq ibadətlə keçirərsə, keçmiş günahları bağışlanar».

Hökmü bəzi insanlar üçün aydın olmayan məsələlərdən biri də oruc tutan şəxsin yaralanması, burun qanaması, qusması və ya ixtiyarı olmadan boğazına su yaxud benzin getməsidir. Bütün bu hallar orucu batil etməz. Amma kim qəsdən qusarsa, onun orucu batil olar. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ ذَرَعَهُ الْقَيْءُ فَلَا قَضَاءَ عَلَيْهِ، وَمَنِ اسْتَقَاءَ فَعَلَيْهِ الْقَضَاءُ».

"Kim qeyri-ixtiyari qusarsa, həmin günün orucunu qəza etməsin. Kim qəsdən qusarsa, qəza etsin".

Buna misal olaraq oruclu şəxsin cənabət qüslünü fəcr doğana qədər təxirə salmasını, habelə bəzi qadınların fəcrdən əvvəl heyz və ya nifasdan təmizləndikdə qüslü fəcr doğana qədər gecikdirməsini göstərmək olar. Belə olan halda qadının oruc tutması vacibdir və onun qüslü fəcr doğduqdan sonraya saxlamasında heç bir maneə yoxdur. Lakin o, qüslü günəş doğana qədər təxirə salmamalıdır. Əksinə, günəş doğmazdan əvvəl qüsl alıb sübh namazını qılması vacibdir. Eləcə də cənabətli olan şəxs qüslu günəş doğduqdan sonraya gecikdirməməlidir. Əksinə, günəş doğmazdan əvvəl qüsl almalı və sübh namazını qılmalıdır. Kişinin sübh namazını camaatla birlikdə qılması üçün buna tələsməsi vacibdir.

Qan analizi vermək və qidalandırıcı olmayan iynələr vurdurmaq orucu pozmur. Lakin mümkün olduğu təqdirdə, bunları gecəyə saxlamaq daha əfzəl və daha ehtiyatlıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«دَعْ مَا يَرِيبُكَ إِلَى مَا لَا يَرِيبُكَ».

"Sənə şübhə verən şeyi, şübhə verməyən şeylə dəyiş".

Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurur:

«مَنِ اتَّقَى الشُّبُهَاتِ فَقَدِ اسْتَبْرَأَ لِدِينِهِ وَعِرْضِهِ».

«Kim şübhəli şeylərdən çəkinərsə, dinini və ləyaqətini qorumuş olar».

Hökmü bəzi insanlara aydın olmayan məsələlərdən biri də fərz və ya nafilə olmasından asılı olmayaraq namazda rahat və təmkinli olmamaqdır. Allah rəsulundan, sallallahu aleyhi və səlləm, gələn səhih hədislər dəlalət edir ki, namazda rahat olmaq namazın ərkanlarından biridir və onsuz namaz səhih deyil. Bu, namazı xuşu ilə, tələsmədən qılmaq və hər bir bədən üzvünün öz yerinə qayıtmasını gözləməkdir. İnsanların çoxu Ramazanda təravih namazını dərk etmədən və rahatlıq tapmadan, əksinə, onu dimdikləyirmiş kimi sürətlə qılırlar. Bu şəkildə qılınan namaz batildir, sahibi isə savab qazanmır, əksinə günah qazanır.

Bəzi insanlara hökmü aydın olmayan məsələlərdən biri də, bəzi insanların təravih

namazının iyirmi rükətdən az, digər bəzilərinin isə on bir və ya on üç rükətdən artıq qılınmasının caiz olmadığını zənn etmələridir. Bütün bunlar yalnış zənn olub, əksinə, dəlillərə müxalif olan bir xətadır.

Peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rəvayət olunan səhih hədislər gecə namazının rükət sayında genişlik olduğuna və aşılması caiz olmayan müəyyən bir həddinin olmadığına dəlalət edir. Əksinə, ondan, sallallahu aleyhi və səlləm, sabit olmuşdur ki, o, Ramazanda və ondan başqa vaxtlarda gecə on bir rükət, bəzən on üç rükət, bəzən isə bundan daha az namaz qılardı. Gecə namazı haqqında ondan soruşulduqda isə belə buyurmuşdur:

«مَثْنَى مَثْنَى، فَإِذَا خَشِيَ أَحَدُكُمُ الصُّبْحَ صَلَّى رَكْعَةً وَاحِدَةً تُوتِرُ لَهُ مَا قَدْ صَلَّى».

«(Gecə namazı) Cüt-cütdür (yəni: iki rükət-iki rükətdir). Əgər sizdən biriniz səhərin açılacağından ehtiyat edərsə, qoy bir rükət də qılsın. Bununla da, qıldığı namazların sayını tək etsin». Hədisi Buxari və Müslim rəvayət etmişdir.

Peyğəmbər, sallallahu aleyhi və səlləm, nə Ramazanda, nə də başqa vaxtlarda müəyyən sayda rükət təyin etməmişdir. Bu səbəbdən səhabələr Ömərin, Allah ondan razı olsun, dövründə bəzən iyirmi üç rükət, bəzən də on bir rükət namaz qılmışlar. Bütün bunların hamısı Ömərdən, Allah ondan razı olsun, və onun dövründəki səhabələrdən sabit olmuşdur.

Bəzi sələflər Ramazanda otuz altı rükət, üç rükət də vitr qılardılar. Bəziləri isə qırx bir rükət qılardılar. Bunu onlardan şeyxul-İslam İbn Teymiyyə və digər elm əhli rəvayət etmişdir. Həmçinin o, rahiməhullah, bu məsələnin geniş olduğunu qeyd etmişdir. O, həmçinin bildirmişdir ki, qiraəti, rüku və səcdələri uzun edən kimsənin rükətlərin sayını azaltması, qısa edənin isə rükətlərin sayını artırması daha fəzilətlidir. Bu, onun, rahiməhullah, sözlərinin mənasıdır.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, sünnəsinə nəzər salan kəs görər ki, istər Ramazanda, istərsə də digər vaxtlarda ən fəzilətli olan on bir yaxud on üç rükət namaz qılmaqdır. Çünki bu, peyğəmbərin, sallallahu aleyhi və səlləm, əksər hallarda etdiyi əmələ daha uyğundur, namaz qılanlar üçün daha rahatdır, xuşu və arxayınlığa da daha yaxındır. Daha öncə də qeyd olunduğu kimi, kim bundan artıq qılarsa, bunda heç bir günah və ya məkruhluq yoxdur.

Ramazan ayının qiyam namazını imamla birgə qılan şəxs üçün ən fəzilətlisi, namazdan yalnız imamla birgə ayrılmasıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«إِنَّ الرَّجُلَ إِذَا قَامَ مَعَ الإِمَامِ حَتَّى يَنْصَرِفَ كَتَبَ اللَّهُ لَهُ قِيَامَ لَيْلَةٍ».

«Bir kişi imam ayrılana qədər onunla birlikdə namaz qılarsa, Allah ona bir gecəlik qiyam savabını yazar».

Bu mübarək ayda bütün müsəlmanlara ibadətin müxtəlif növləri ilə səy göstərmək buyurulur. Məsələn: nafilə namazları qılmaq, Quranı düşünərək və anlayaraq oxumaq, təsbih, təhlil, təhmid, təkbir və istiğfar zikrlərini çoxaltmaq, şəriətə uyğun dualar etmək, yaxşı işləri əmr edib pis işlərdən çəkindirmək, Allaha dəvət etmək, kasıblara və miskinlərə yardım etmək, valideynlərə yaxşılıq etməyə və qohumluq əlaqələrini saxlamağa səy göstərmək, qonşuya hörmət etmək, xəstələri ziyarət etmək və digər bu kimi xeyir əməlləri yerinə yetirmək. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, əvvəlki hədisdə belə buyurmuşdur:

«يَنْظُرُ اللهُ إِلَى تَنَافُسِكُمْ فِيهِ، فَيُبَاهِي بِكُمْ مَلَائِكَتَهُ؛ فَأَرُوا اللهَ مِنْ أَنْفُسِكُمْ خَيْرًا، فَإِنَّ الشَّقِيَّ مَنْ حُرِمَ فِيهِ رَحْمَةَ اللهِ».

«Allah sizin bu işdəki yarışmanıza nəzər salar və sizinlə mələklərinə öyünər. Elə isə Allaha özünüzdən xeyir göstərin. Çünki bədbəxt, bu işdə Allahın rəhmətindən məhrum qalan kəsdir».

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə buyurduğu rəvayət edilir:

«مَنْ تَقَرَّبَ فِيهِ بِخَصْلَةٍ مِنْ خِصَالِ الخَيْرِ كَانَ كَمَنْ أَدَّى فَرِيضَةً فِيمَا سِوَاهُ، وَمَنْ أَدَّى فِيهِ فَرِيضَةً كَانَ كَمَنْ أَدَّى سَبْعِينَ فَرِيضَةً فِيمَا سِوَاهُ».

«Kim bu ayda bir xeyir əməl edərsə, başqa vaxtlarda bir fərzi əda etmiş kimidir. Kim də bu ayda bir fərzi əda edərsə, başqa vaxtlarda yetmiş fərzi əda etmiş kimidir».

Peyğəmbər, sallallahu aleyhi və səlləm, səhih hədisdə belə buyurmuşdur:

«عُمْرَةٌ فِي رَمَضَانَ تَعْدِلُ حَجَّةً، أَوْ قَالَ: حَجَّةً مَعِي».

"Ramazan ayında edilən ümrə, bir həccə yaxud mənimlə edilən bir həccə bərabərdir".

Bu mübarək ayda xeyir işlərin müxtəlif növlərində yarış və rəqabətin şəriətə müvafiq olmasına dəlalət edən hədislər və əsərlər çoxdur.

Uca Allahdan diləyirik ki, bizi və bütün müsəlmanları razı qaldığı hər bir xeyrə müvəffəq etsin, oruc və gecə namazlarımızı qəbul etsin, halımızı islah etsin, hamımızı azdıran fitnələrdən qorusun, həmçinin müsəlmanların rəhbərlərini islah edib onları haqq üzərində birləşdirsin. Həqiqətən, bunu edən və buna gücü yetən yalnız Odur.

Əs-Sələmu aleykum va rahmətu-Llahi va bərakətuh.

# Mündəricat

Zəkat və oruc haqqında iki müxtəsər risalə. .......... 2
Zəkat və oruc haqqında iki müxtəsər risalə. .......... 2
Birinci risalə. .......... 2
Zəkatla bağlı mühüm araşdırmalar .......... 2
İkinci risalə .......... 12
Ramazan orucunun və qiyamının fəziləti, habelə bəzi insanlara məxfi qalan mühüm hökmlərin bəyanı. .......... 12

az418v2.0 - 06/09/2026